

*Həsən XASIYEV*

## YAŞADIM

***Fid-dünya həsənətən və filaxirəti həsənəh.***

*Qurani-Kərimin Bəqərə surəsinin*
*201-ci ayəsindən*

Yaşamaq sevdası çıxmaz canımdan,
Bağlandım Vətənə, elə, yaşadım.
Həyatım keçmədi mənasız bir an,
Vermədim illəri yelə, yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Əzəlim o müdrik, ağ saçlı Şahdağ,
Samur sahilində çatmışam ocaq.
Zəfərlə yüksəlib səsim Qarabağ,
Çəkib "şikəstəni" zilə yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Qəhrəman Poladın qisasın aldım,
Düşməni məhv edib, odlara saldım.
Şuşamın sahibi, ağası oldum,
Olmadım qara qul, kölə, yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Yoxsa yaşamağa haqqım yox idi,
Başım aşağıydı, dilim gödəkdi.
Alnım açıq indi, könlüm tox indi,
Qalibtək düşərək dilə, yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Dedilər müqəddəs ana südütək,
Halaldı qeyrətlə yediyim çörək.
Şəhidlər eşqinə yandırdım ürək,
Qazıya sevinci belə yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Sanma ki, qürbətdə, qıraqda gəzdim,
İranı dolanıb, İraqda gəzdim.
Yox, Qaxda, çiçəkli Qıvraqda gəzdim,
Bakımı qərq edib gülə, yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Gün keçdi parlayan bir ulduz kimi,
Bal kimi şipşirin, acı duz kimi.
Alışdım günəştək, dondum buz kimi,
Düşüb qar, yağışa, selə, yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Adam var, xeyirxah insan balası,
Yaxşılar yaxşısı, xasılar xası.
Verdim nadürüstə qulaqburması,
Çəkdim nakişiyə sillə, yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

İşləyib gecəmi gündüzə qatdım,
Nə bir yol dincəldim, nə bir yol yatdım.
Elə hey çalışdım, qan-tərə batdım,
Düşmədi dalımdan şələ, yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Şeytanın felinə bəzən uymuşam,
Amma ki, tezliklə son da qoymuşam.
Günahımı savabımla yumuşam,

Səhvimi düzəldə, silə, yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Həyatda öz sözüm, öz səsim olub,
Düşünmə arxamda bir kəsim olub.
Allaha inandım, bu bəsim olub,
Çox şükür, səbirlə, səylə yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Hər kəs bu dünyada qonaqdı, düzü,
Yaş ötsün 70-i, ya da ki 100-ü.
Ağlayır bir gözü, gülür bir gözü,
Ağlaya yaşadım, gülə yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Yaşamaq nə rütbə, nə çindir, kişi,
Yaşamaq çətindir, çətindir, kişi.
Nə məni sual et, nə dindir, kişi,
Söyləyə bilmərəm hələ yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

Sənət məbədini sözlə hörmüşəm.
Xiridar kəsləri razı görmüşəm.
Siz deyin, ömrümü necə sürmüşəm?
Xalqımdan öyrənə, bilə yaşadım,
Mən belə yaşadım, belə yaşadım.

---

***Redaksiyadan:***

Qusar ədəbi mühitinin yetirməsi, dostumuz, gözəl insan, əsl vətəndaş-şair Həsən Xasıyevi 70 yaşı münasibətilə ürəkdən təbrik edirik.